*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.293

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 01.04.2023*
*Kabul tarihi |Accepted: 20.04.2023*
*Yayın tarihi |Published : 25.04.2023*

**Lalə Məmmədova**
https://orcid.org/0000-0003-2232-8624
*PhD student, Educational Institute of the Republic of Azerbaijan, Azerbaijan, lala7lala.la@gmail.com*

*Atıf Künyesi | Citation Info*
Məmmədova, L. (2023). Tələbələrdə Təlim Motivasiyasının Formalaşmasında Layihə Əsaslı Tədrisin Əhəmiyyəti, *Akademik Tarih ve Düşünce Dergisi*, *10* (2), 498-507.

# Tələbələrdə Təlim Motivasiyasının Formalaşmasında Layihə Əsaslı Tədrisin Əhəmiyyəti

***Xülasə***

*Müasir təhsili-sistemli layihələndirmə olmadan təsəvvür etmək çətindir. Tədris artıq situativ və xaotik yaranan proses olmayaraq, müsbət nəticəyə xidmət etməli və bütün təhsil sistemi çərçivəsində nəzərdə tutulmalıdır. Bu gün təhsil mühüm ictimai funksiya yerinə yetirir – şüuru, sosial-psixoloji sabitliyi formalaşdırır, şəxsiyyəti mənəvi münasibətlər baxımından tərbiyə və inkişaf etdirir, eyni zamanda tələbənin idraki aktivliyini stimullaşdırır. Tədris prosesinin effektivliyinin artırılmasında mühüm yanaşmalardan hesab olunan layihə əsaslı təlim prosesində tələbələrdə motivasiyanın formalaşdırılması vacib məsələdir Məhz layihə üzərində iş prosesində tələbələrdə müsbət motivlərin yaranmasını müşahidə etmək olar. Bu zaman təlim fəal-müstəqil əsaslarla, tələbələrin praktiki fəliyyəti vasitəsilə həyata keçirildiyi üçün əldə edilən biliklərdən əmin olmaq imkanı yaranır. Layihə metodu sayəsində tələbələr müxtəlif informasiya ilə fəaliyyətdə olmağı, məqsəd və vəzifələri müəyyən etməyi, işlərini planlaşdırmağı öyrənirlər ki, bu da nəticədə tələbələrin əldə etdikləri biliklərin keyfiyyətini yüksəldir, tədris prosesi gedişində onlarda məqsədyönlülük, əməksevərlik, məsuliyyət kimi zəruri keyfiyyətləri formalaşdırır.*

***Açar sözlər:*** *layihə metodu, tədris prosesi, qrupda fəaliyyət, təlimin motivasiyası, pedaqoji metodlar*

# The Importance of Project-Based Learning in the Formation of Students' Learning Motivation

***Abstract***

*It is difficult to imagine modern education without systematic project designing. Teaching should serve to positive result by not being an emergent situational and chaotic process anymore, and should be considered within the framework of whole education system. Today, education performs an important social function – it forms consciousness, socio-psychological stability, educates and develops personality from the point of view of moral attitudes (relationships), and also stimulates student's cognitive ability. It is an important issue for students' motivation to be formed in the project-based learning process, which is considered one of the important approaches in increasing effectiveness of the teaching process. In the process of working on projects students can observe the formation of positive motives. During this process, there is an opportunity to be confident in the knowledge gained, since the training is carried out on an active-independent basis, through students' practical activities. Thanks to the project method, students learn to get involved in activities with a variety of information, define goals and tasks and plan their work, which ultimately improves the quality of knowledge obtained by students, and forms in them such necessary qualities as purposefulness, diligence and responsibility etc.*

***Keywords:*** *project method, teaching/learning process, group activities, learning motivation, pedagogical methods*

## Giriş

Tədris və təlim prosesi psixologiya, sosiologiya, fəlsəfə, tarix, idrak elmləri kimi müxtəlif fənnləri özündə birləşdirən böyük və mürəkkəb sistemdir. Əsrlər ərzində pedaqoqlar, psixoloqlar əhəmiyyətli, dəyərli və təsirli tədrisin təşkili ilə bağlı məsələlərlə məşğuldurlar, bu məqsədlə çoxlu sayda tətbiqi vasitələr və konkret tədris göstəriciləri hazırlanmışdır. Bu gün isə sistemli layihələndirmə olmadan tədrisin təşkilini təsəvvür etmək çətindir. Tədris müsbət nəticəyə xidmət etməli və düzgün hesablanaraq arzuedilən olmalı, bütün təhsil dövründə (məktəb, peşəkar, milli) nəzərdə tutulmalıdır.

Son illər tədrisdə layihə metodundan istifadə sahəsi xeyli sayda eksperimentlər, nəzəriyyələr, tədris məlumatlarları ilə zənginləşir. Layihə əsaslı tədrisin tam fərqli bir yanaşmaya gətirib çıxaracağı, təlimin məzmununun müəllim tərəfindən tələbəyə sadəcə ötürülməsi ilə kifayətlənməyərək, müxtəlif vasitə və metodların inteqrasiyasına səbəb olacağı anlaşılandır. Layihə əsaslı tədris prosesində təlim motivasiyası pedaqoji ədəbiyyatda aktuallığını saxlayaraq, xüsusi əhəmiyyət kəsb edir. Məhz burada tədris prosesinin əsasını təşkil edən fərd və cəmiyyət arasında qarşılıqlı əlaqənin spesifik tərəfləri üzə çıxır. Qeyd edək ki,

motivasiyaların və dəyərlərin formalaşması şəxsiyyətin inkişafının tərkib hissəsidir. İnkişafın keçid və böhran dövrlərində yeni motivlər, dəyərlər, tələb və maraqlar üzə çıxaraq şəxsi keyfiyyətlərə təsir göstərir. İnformasiya texnologiyalarının inkişafı da təlim prosesində öyrəncilərin motivlərinin yüksəlməsinə öz töhfəsini verir. Tələbələrdə təlimə motivasiya probleminin həllində doğru istiqaməti seçmək üçün tədris prosesinin ümumi konteksində vacib müddəaları–təhsil fəaliyyəti ilə bağlı əsas şərtləri ayırmaq lazımdır.

***Əsas mətn*** Təlimin motivasiyası müasir psixologiya, sosiologiya və pedaqoqika elminin mühüm problemlərindəndir, belə ki, təlimin motivasiyası tədrisin keyfiyyəti deməkdir. Təsadüfi deyildir ki, sözügüdən problemə çoxlu sayda elmi əsərlər həsr olunub. Bunların arasında D. A. Kiknadze, V. S. Merlin, A. A. Fayzullayev, Ş. N. Çxartişvili, D. V. Atkinson, X. Xekhauzen, A. Q. Maslou, K. V. Madsen, V. Q. Aseev kimi tədqiqatçıların dəyərli əsərləri yer alır. Şəxsiyyəti fəaliyyətə təhrik edərək onun istiqamətini müəyyən edən "motivasiya" psixologiyanın bütün sahələrində geniş mənada istifadə edilərək, məqsədyönlü fəaliyyətin səbəb və mexanizmlərini tədqiq edir. Motivasiyanın yalnız insana aid nəzəriyyələri XIX əsrin 20-ci illərində yaranmağa başlandı. İlk dəfə K. Levin tərəfindən irəli sürülən motivasiya konsepsiyasının əsas prinsipləri bir sıra nəzriyyə və anlayışların bünövrəsini təşkil edərək müxtəlif istiqamətlərin ortaya çıxması ilə nəticələndi. Bunlar arasında A.Maslounun "təlabatlar piramidası", F. Qersbergin "ikiamillik modeli", V.Vrumun "gözləmə nəzəriyyəsi", S.Adamsın "ədalət nəzəriyyəsi", D. Mak. Klelland və C. Atkinsonun "qazanılmış ehtiyaclar nəzəriyyəsi" mühüm yer tutur.

Azərbaycan pedogoji-psixoloji elmi ədəbiyyatında təlim prosesində motivasiyanın bu və ya digər tərəfləri F. Sadıqova, G. Mustafayeva, C. Zeynaloğlu tərəfindən tədqiq edilmişdir. F.Sadıqova motivasiyanı təlim prosesinin sistematikliyi üçün vacib olan şərtlərdən biri kimi qiymətləndirərək qeyd edir ki, motivasiyanın olmaması təhsildə uğurların azalması ilə nəticələnə bilər (Sadıqova, 2021). G. Mustafayeva motivasiyanı insan münasibətlərinə istiqamət verən ən önəmli amillər sırasına daxil edərək göstərir ki, bu, öyrəncini düşünməyə məcbur etməli, fəaliyyətə həvəsləndirilməlidir (Mustafayeva, 2016). C. Zeynaloğlu problemin psixologi məqamlarına diqqəti cəlb edərək təlim prosesində lazımi məqsədə istiqamətləndirmək üçün müəllimdən nəinki yüksək bilik, pedaqoji ustalıq, həm də yüksək psixoloji hazırlıq imkanlarına malik olma tələbini ortaya qoyur (Zeynaloğlu, 2015). Motivasiyanın yaranaraq inkişafı məktəb təhsili dövründən özünü göstərməyə başlayır, bu zaman şəxsi fiziki və intellektual imkanlar haqqında real təsəvvürlər bütünlükdə motivasiya sisteminə təsir edərək tədris motivasiyasına da müəyyən dərəcədə toxunur. Həmin nöqteyi-nəzərdən tədrisin təsiredici texnologiyaları, əsasən də layihəli fəaliyyət ciddi maraq doğurur. XIX əsrin ikinci yarısında

yaranan təhsildə layihə metodu öyrəncilərdə müstəqil təfəkkürün inkişaf yollarının müəyyən edilməsi, bilikləri yalnız yadda saxlamayaraq tətbiqetmə bacarıqlarının üzə çıxarılması məqsədinə istiqamətlənmişdi (Sultanova, 2012). Bəhs olunan texnologiyanın fərqli tərəfi tələbənin mövqeyi məsələsidir. Tələbə pedaqoji təsirlər obyektindən öz təhsili və inkişafında maraqlı, aktiv bir subyektə çevrilir. Beləliklə, “layihələr metodu” səpkili texnologiyalar insanın öz dünyası ilə ətraf dünyası arasındakı fəaliyyət bacarıqlarının meydana çıxması üçün əvəzedilməzdir (Galsperin, 2007). Tələbəyə fəal subyekt olmaq imkanı verən layihə əsaslı tədris, onun əvvəldən sona qədər bütün fəaliyyətində (nəzərdə tutduqlarından nəticəyə qədər) əhəmiyyətlidir. Göstərilən metodun əsas vəzifəsi təcrübi məsələlərin həlli prosesində tələbənin sərbəst biliklər qazanmasına şərait yaradılmasından ibarətdir (Markova, Matis, ve Orlov, 1990). Nəticədə, tələbənin şəxsi marağı tədris motivasiyasının əsas hərəkətverici qüvvəsinə çevrilir. Bu situasiya müəllimin roluna də təsirsiz qalmır, müəllim biliyin yeganə mənbəyi olmayaraq problemin həlli üçün istiqamətverici funksiyanı yerinə yetirməyə başlayır. Tələbələr də öz növbəsində layihlər üzərində işləyərək şüurlu surətdə informasiya axtarmağa, onu tətbiq etməyə başlayırlar, şəxsi biliklərini və həyat təcrübələrini inteqrasiya etmək imaknına malik olurlar. Layihə üzərində çalışmanın nəticəsi müəllimin verdiyi qiymət deyil, real həyat olur, qiymət yalnız görülən işin vəziyyətini göstərir. Tədris texnologiyası olaraq layihə fəaliyyətinin bir üstünlüyü də tələbə narahatlığının – tədris prosesinin ən kəskin probleminin həll olunmasıdır. Belə ki, qiymət meyarını müəyyən edən layihə əsaslı tədris metodu tələbələrə yerinə yetirəcəkləri işin nəticəsi üçün qiyməti planlaşdırmaq (müəllimlə öncədən razılaşdırılmış meyarlar əsasında) imkanı verir. Layihə əsaslı tədrisin pedaqoji təyinatı tələbələri işin gedişatı prosesində müəyyən biliklərə yiyələnərək aktual problemlərin həllinə motivasiya etməkdən ibarətdir ki, bu da əldə edilən biliklərin təcrübədə tətbiqi üçün real imkanlar vəd edir.

Şəxsiyyətin mahiyyətini tədqiq edən psixoloqlar motivasiyaya xüsusi yer verirlər, belə ki, bu, insanın davranışında və fəaliyyətində hərəkətverici qüvvənin izahı üçün istifadə olunan əsas anlayışlardan biridir. Motivasiya sistemi öyrəncilərin hazırkı fəaliyyətini izah edərək, onun inkişaf perspektivlərini müəyyən edir. Bu səbəblərdən də motivasiya metodoloji, nəzəri və təcrübi aspektlərdə mühüm problemlər sırasına daxildir. Motivasiya dünya üzrə mövcud tədris müəssislələrində tələbələrin peşəkar hazırlığı üçün zəruridir, eyni zamanda mahiyyəti etibarilə mürəkkəb struktura malikdir. Konkret fəaliyyətə istiqamətlənən motivasiya təhrikedici amil kimi çıxış edərək, başlanan hər bir fəaliyyətin məntiqi baxımdan tamamlanmasına təkan verir. İstənilən prosesin əsasını təşkil edən motivasiya, prosesi formalaşdıraraq başlanmasına səbəb olur. Motivasiya və motivlərə həsr olunan bir çox tədqiqat işlərində onların təbiəti ilə bağlı müxtəlif fikirlər özünü göstərir, hətta motivasiyanın mahiyyətcə mürəkkəb, anlaşılmaz olması kimi fikirlərə də rast gəlinir. Təlim prosesində yetəri səviyyədə motivasiyanın yaranması üçün

bir sıra amillərin təsiri şübhəsizdir. Bunlar arasında informasiyanın nəzəri və təcrübi mənbələri (mühazirələr, didaktik materiallar, elektron resurslar, nəşr materialları), müəllimin peşəkar hazırlıq səviyyəsi və onun tələbələri işə qruplar şəklində cəlb edə bilmək qabiliyyəti, mənimsənilən tədris materialının monitorinqi, eləcə də motivasiya mərhələsindən başlayaraq dərketmə və qiymətləndirmə mərhələsinədək tədris fəaliyyətinin bilavasitə təşkili əsas yer tutur (Leont'yev, 1971). Motivlər tədris prosesinə eyni təsirə malik olmayaraq bir-birini qarşılıqlı surətdə tamamlayırlar. Növlərindən asılı olaraq motivlər formalaşaraq fərdi zərurətlər əsasında inkişaf edərək müstəqilliklərini qoruyurlar. Tədris motivasiyasının xüsusiyyətləri mürəkkəb struktura malikdir. Motivasiyanın formalaşması tələbələrin auditoriyadan kənar fəaliyyətində– layihə metodlarının tətbiqi prosesində də formalaşa bilər ki, bunun mühüm komponentlərini daim özünə nəzarət, təşkilatçılıq təşkil edir. Təlim prosesində müsbət nəticə əldə etməyin başlıca yolu motivasiyanın yüksəldilməsi ilə müəyyən olunur. Yüksək motivasiya həm də düzgün inkişaf etmiş şəxsiyyət deməkdir (Sadıqova, 2021). Tədris prosesi geniş mənada şəxsiyyətin sosial əhəmiyyətli fəaliyyətə cəlb edilməsi məqsədinə xidmət göstərən zəruri keyfiyyətlərinin formalaşmasına yönəlib. Bu isə yalnız "pedaqoji fəaliyyət subyekti–təlim fəaliyyəti subyekti" sistemində təsirli qarşılıqlı fəaliyyət şəraitində mümkündür. Başqa sözlə, müəllim öyrədir, istiqamət verir və inkişaf etdirir, tələbə isə yeni biliklərə, bacarlq və vərdişlərə yiyələnir, özünü təkmilləşdirir, mənəvi dünyasını zənginləşdirir (Mammadli, 2020; Məmmədli, 2019). Tədrisin asılı olduğu metodik sistemin istiqamətindən başlayaraq, son nəticəyə qədər bütün prosesdə pedaqoq mühüm komponent kimi çıxış edir. Bir çox fənlərin tədrisində izahedici illüstrativ, əyani, təcrübi, problem və disskusiya metodları tərbiq edilir, müsahibələr aparılır, layihə əsaslı tədrisə geniş yer verilir. Tədris prosesində layihə metodundan istifadə müxtəlif vərdişlərin – tədqiqatçı, yaradıcı, kommunikativ bacarıqların hərtərəfli və şüurlu inkişafına təkan verir, məntiqi qabiliyyət və qeyri-standart təşəkkürün ortaya çıxmasına şərait yaradılır. Bu metod materialın daha dərindən mənimsənilməsinə, tələbələrdə ayrı-ayrı səriştələrin yüksək səviyyədə formalaşmasına, müəllim və öyrənci arasında əks əlaqənin yaranmasına, nəticədə təlimdə motivasiyanın yüksəlməsinə səbəb olur. Bütün bunlardan əlavə, layihə əsaslı tədris tələbələrin tam sərbəstliyinə (müstəqilliyinə) imkan yaradaraq, müəllim tərəfindən daha az nəzarətə səbəb olur, bu isə materialın məzmununun daha yaxşı mənimsənilməsinə, daha üstün nəticələrə gətirib çıxarır. İnformasiyanın intensiv emalı, yaradıcı potensialın meydana çıxması, qeyri-standart yanaşmanın tətbiqi sayəsində müsbət emosiyalar özünü göstərir (Patrick, 1993). Motivasiyanın formalaşmasında müstəqilliyin əhəmiyyəti bir çox tədqiqatçılar (Benware, Deci, Boggiano et al., Flink et al, Grolnick, Ryan)

tərəfindən də qeyd edilir. Bu pedaqoji metodika bir-biri ilə qarşılıqlı əlaqədə olan elementlər sayəsində həyata keçirilir:

– məqsədli (məqsədin qoyulması və tədrisin vəzifələrinin müəyyən edilməsi);

–məzmunlu (ilk növbədə tədris planları, metodik göstəricilərlə müəyyən edilir);

–əməli fəaliyyətli ( tədris materialının mənimsənilməsinə istiqamətlənən qarşılıqlı fəaliyyətin forma və vasitələri);

–nəzarət-nizamlama üsullu (monitorinqlərin təşkili və tədris prosesinin müəllim tərəfindən müəyyən edilməsi);

–qiymətləndirmə-nəticə üsullu (əldə edilmiş biliklərin, bacarıq, vərdiş və səhvlərin müstəqil qiymətləndirilməsi).

Bir çox tədqiqatçılar tələbənin marağı və tədrisin nəticəsi arasında birbaşa əlaqənin olduğunu qeyd edirlər. Fəaliyyətin bütün istiqamətlərində olduğu kimi motiv nə qədər dərkedilən olursa, nəticə də bir o qədər uğurlu olur. Motiv amillərinin güclü və sabit toplusu nəzərdə tutulan hədəflər yolunda maneələrin daha tez aradan qaldırılmasına kömək edir. Təlim motivlərinin kifayət qədər formalaşmaması isə fənnlərin mənimsənilməsində tələbələrin fəallığını azaldır və nəticələrə də mənfi təsir göstərir. Beləliklə, tədris prosesinin effektivliyinin artırılmasında mühüm yanaşmalardan biri konkret fəaliyyət üzrə motivasiyanın formalaşmasıdır.

Peşəkar fəaliyyətin motivasiyasının tədqiqində daxili və xarici motivasiya nəzəriyyəsi əsas yer tutur (Polat, 1999; Rean- Kolominskiy, 1999).

Təcrübədə bu iki motivasiya növü "sırf daxili" və "sırf xarici" olaraq nadir hallarda təzahür edə bilər. Daxili motivasiya o zaman yarana bilər ki, bu, insan üçün həyati əhəmiyyətə malikdir, ya da onu məmun edə bilər. Mükafat, bir anlıq fayda ilə müqayisədə aktuallığı ilə fərqlənən vəzifələrin yerinə yetirilməsi motivasiyası tələbələri, bir qayda olaraq, daha çox maraqlandırır (Guzeyev, 1996). Desiyə görə motivasiya insanda pozitiv potensial yaradaraq yeniliklər əldə etməyə, tədqiqatlara cəlb edir, eyni zamanda, insanın bacarıqlrının genişləndirilməsinə təkan verir (Deci, 1971). Digər tərəfdən, mükafat və cəzalar xarici amillər olaraq daxili motivasiyaya stimul verir, bunun təhlükəli tərəfi isə tələbələrdə mümkün asılılığın yaranmasıdır. Eyni zamanda, bəzi tədqiqatçılar (Khekkhauzen, 2003; Deci, 1971) göstərirlər ki, fəaliyyətə görə mükafatın verilməsi əvvəlcə maraq yarada bilər, sonra isə daxili motivasiyanı basdıra bilər.

Layihə əsaslı təlim prosesində tələbələrdə motivasiyanın yaradılması son dərəcə önəmlidir. Müəllim tələbələri sualların, vəzifələrin qoyuluşuna istiqamətləndirməlidir ki, onlar həmin sualların sayəsində problemlərin həlli yollarını axtarsınlar. Seçilən ümumi mövzu ayrı-ayrı hissələr şəklində bütün auditoriya üzrə paylanmalı, auditoriya üzvləri komandalara

bölünərək hər komanda ümimi layhədən müəyyən edilən hissə üzərində işləməlidir. Komanda üzvləri problemi birlikdə həll edə, yaxud vəzifə bölgüsü apara bilərlər. Qrup tərəfindən icraedici rollarla yanaşı idarəedici (ekspert) rolunun da müəyyən edilməsi vacibdir. Müəllimin layihə üzərində işlə bağlı variantlar təklif etməsi müqabilində tələbələr özlərinə uyğün variantları seçə bilərlər. Tələbələr qarşısında layihə fəaliyyətinin nəticəsinin tərtib üsullarının (məruzə, referat, maket, albom, sayt, videofilm və s.) müəyyən edilməsi məsələsi qoyulmalı, problem müəyyən edildikdən sonra aktuallıq əsaslandırılmalı, məqsəd və vəzifələr dəqiqləşdirilməlidir. Kollektiv və ya qrup layihəyə aid məsələlərin müzakirəsini təşkil edərək nəticə əldə etmək üçün metodlar aramağa başlayır, effektiv nəticə əldə etmək üçün bütün mümkün variantlar nəzərdən keçirilərək fəaliyyət planı müəyyən edilir. Layihənin yerinə yetirilmə müddəti və fəaliyyət qrafiki müəllim tərəfindən də müəyyən edilə bilər, yaxud tələbələrlə müəllim arasında bu barədə razılığa da gəlmək mümkündür. İnformasiya axtarışında müəllim tələbələrə stimullaşdırıcı dəstək verməli, məsləhətlər keçirməli, motivasiya üçün variantlar üzə çıxrmalıdır. Tamamlanmış layihə mütləq təqdim olunmalı və ictimai qiymət (auditoriya üzvləri, digər auditoriyalar, əlaqəli təhsil müəssisələri və s.) almalıdır. Bu, fəaliyyətə məna veməklə yanaşı motivasiya və məsuliyyətin artırılmasına da səbəb olur. Layihə əsaslı təlimin ən maraqlı tərəflərindən biri təqdimatdan sonra qrupların ekspert nümyəndələrinin nəticəyə öz qiymətlərini verməsidir. Digər qruplar tərəfindən irəli sürülən "opponentlər" də öncədən müəyyən edilən kriteriyalara uyğun şəkildə öz qiymətlərini verərək layihənin müsbət və mənfi tərəflərini göstərirlər. Bu mərhələdə oponentlər layihənin bəzi tərəflərinin yenidən işlənməsi, təkmilləşdirilməsi, təcrübi tətbiqi ilə əlaqəli təkliflər də irəli sürə bilərlər.

Layihə metodlu tədrisin əsasında tələbələrin tədqiqat fəaliyyəti durur.Tələbə passiv dinləyici, hazır informasiyanı qəbul edən obyektdən, elmin yeni nailiyyətlərindən istifadə edərək cavablar tapan, biliklər əldə edən obyektə çevrilir. Bu vəziyyətdə müəllim yardımçı, istiqamətverici rol oynayır. Müəllim tələbəni dəstəkləməli, məsləhətlər verməli, amma problemi onun əvəzinə həll etməli deyil. Təlim prosesində motivasiya bir neçə funksiyanı yerinə yetirir: davranışı təşviq edir, istiqamətləndirir və təşkil edir, fəaliyyətə anlam və dəyər verir. Göstərilən bu üç funksiyanın birliyi davranış prosesində motivasiyanın nizamlayıcı rolunu təmin edir (Guzeyev, 1996).

**Nəticə**

Təlim motivasiyası idrak, sosial və şəxsi motivlərin birliyindən yaranan bir tam şəklində özünü göstərərək fənlərarası inteqrasiya, təlimin daxili və xarici motivlərinin fəllığı prosesində səviyyəsinin yüskəlməsi xüsusiyyətinə malikdir. Təlim motivasiyanın yüksəlməsinin kompleks şəkildə baş verməsi üçün fasiləsiz inkişaf edən təhsil mühiti yaradılmalı və tədris prosesində reallaşdırılmalıdır. Sözügedən komponentlərin həyata keçirilməsi üçün aşağıdakı pedaqoji şəraitin yaradılması zəruridir:

- tədris prosesində təbiət elmləri, humanitar və estetik fənnlərin məzmununun inteqrasiyası;
- tələbələrin tədris və qeyri tədris (kurs proqramlarının tətbiqi, əlavə dərslər) fəaliyyətinin qarşılıqlı əlaqəsinin təmin edilməsi;
- şəxsiyyətin mövcud olduğu emosional mühitin (şəxsiyyət amili, müsbət emosional fon) və intellektual mühitin (ümumtədris bacarıqları və vərdişlərin formalaşması) hormonik inkişafının təmin edilməsi;
- problemli, dizayn, modul və digər təşkilati təlim texnologiyalarından istifadə edərək kommunikativ durumların modelləşdirilməsi;

Etiraf etmək lazımdır ki, motivasiyanın formalaşması prosesində onun yeni tərəfləri də üzə çıxır, belə ki, tədris prosesinin motivasiyası yalnız tələbələrin bura hansı motiv və təlabatlarla cəlb edilməsi ilə deyil, eyni zamanda, emosional və rasional qiymətləndirilmə məqamları ilə müəyyən edilir. Şübhə etmək olmaz ki, bu gün tədris fəaliyyətində ən təsirli metodlatdan biri layihə metodlu tədris prosesində tələbələrdə müsbət motivlərin formlaşmasını müşahidə etmək olar. Tələbələrdə təlimə motivasiya probleminin həllində döğru istiqaməti seçmək üçün tədris prosesinin ümumi konteksində vacib müddəaları–təhsil fəaliyyəti ilə bağlı əsas şərtləri ayırmaq lazımdır. Layihə əsaslı təlim prosesində müəllim fəaliyyət zamanı tələbənin qabiliyyətlərinə deyil, cəhdlərinin qiymətləndirilməsinə vurgu edirsə, tələbənin motivasiyasını yüksəltmiş olur. Layihə üzrərində iş zamanı müəllimin məqsədli olaraq tələbələrin layihə haqqında təsəvvürlərini, bir-biri ilə işləmək arzusunu, fərdi xüsusiyyətlərini nəzərə alması təqdirolunan hesab edilir. Əslində, sözügedən tədris metodu əməkdalıqsız mümkün deyil. Bəhs edilən tədris metodu problemin tədqiqat işi, yaradıcı fəaliyyət olaraq həllini nəzərdə tutur, bu isə öz növbəsində tələbə qrupunu fəaliyyət alqoritmini dəqiqliklə planlaşdırmağa, hər bir iştirakçının rolunu müəyyən etməyə istiqamətləndirir. Layihə metodlu tədrisdə müəllim hazır biliklər ötürücüsündən tədqiqat işinin, yaradıcı fəaliyyətin təşkilatçısına çevrilir, tələbə qrupunun psixoloji mühitini nəzarətdə saxlayır. Müəllim bir çox vacib məqamları – iştirakçıların sayının, işin strukturunun müəyyən edilməsi, problemin həlli variantlarının araşdırılması, mövzu seçimi, informasiyanın axtarılması yolları, layihənin başa çatdırılması vaxtı və müdafiəsi məsələlərini tələbələrlə planlaşdırılaraq müzakirə etməyi

bacarmalıdır. Eyni zamanda, müəllim layihə qrupu ilə birlikdə məlumatları təhlil etməli, fəaliyyətin bütün mərhələlərinin statistikasını aparmalı, bunun üçün isə işi yönləndirməyi (koordinasiya etməyi) bacarmalı, müəyyən tədqiqat fəaliyyəti metodlarına sahib olmalıdır. Qrup üzvlərinin əməkdaşlıq naminə bir-birinin rəyini nəzərə alaraq, hörmətlə yanaşacaqları, layihənin ümumi nəticəsi naminə hər üzvün qabiliyyətindən istifadə ediləcəyi halda layihə qruplarında tələbələrin fəaliyyəti effektli ola bilər. Layihə metodu layihə qrupu üzvlərində konstruktiv tənqidi təfəkkür formalaşdıraraq onlara problemin həllində öz nöqteyi-nəzərlərinin yaranmasına, informasiyaya münasibətdə şəxsi fikrə malik olmalarına imkanı verir. Hətta layihə istənilən müsbət nəticə ilə tamamlanmasa da müsbət pedaqoji nəticənin mövcudluğu inkaredilməzdir, çünki səhvlərin dərk edolməsi tələbələri təkrar fəaliyyətə motivasiya etməklə yanaşı öz fəaliyyətinə adekvat qiyməti formalaşdırmağa da sövq edir. Təklif olunan modelin tətbiq edilməsi tədris prosesində motivasiyanın doğru formalaşaraq ardıcıl inkişafına təkan verəcək və beləliklə tələbələrin peşəkar tədris proqramını yüksək səviyyədə mənimsəmələrinə səbəb olacaq.

## Ədəbiyyat

Deci, E. L. (1971). Effects Of Externally Mediated Rewards on Intrinsic Motivation. *Journal of Personality and Social Psychology*, *18* (1), 105-115.

Galsperin, P. Y. (2007). *Leksii po psihologii*. AST

Guzeyev, V. V. (1996). *Obrazovatel'naya tekhnologiya ot vvedeniya v filosofiyu*. Sentyabr.
Khekkhauzen, K. H. (2003). Motivatsiya i deyatel'nost'. Smısl.

Leontyev, A .N. (1971). *Potrebnosti, motivı i emosii*. İzdatelstvo Moskovskogo Universiteta.

Mammadli, Ş. (2020). Tarih Ögretimi ve Manavi Değerler. *International of Journal Management and Social Researches Uluslararası Yönetim ve Sosyal Araştırmalar Dergisi.* 7, (13), 40-45.

Markova, A. K., Matis, T. A. ve Orlaov, A. B. (1990). *Primernaya programma psihologicheskogo izucheniya uchitelem motivasii ucheniya shkolnikov*. Prosvesheniye.

Məmmədli, Ş. (2019). Tarixin Tədrisində Mənəvi Dəyərlərin Aşılanması. *Tarix, insan və cəmiyyət elmi-nəzəri və elmi-metodiki jurnalı* , ADPU, *4* (27), 37-49.

Mustafayeva, G. (2016). *Tədrisdə Motivasiya və İKT-Dən İstifadənin Əhəmiyyəti*. Azərbaycan məktəbi, № 6.

Patrick C. J., Bradley, M. M. ve Lang, P. J. (1993). *Emotion in the Criminal Psychopath: Startle Reflex Modulation*. Florida State University.

Polat, Y. S. (1999). Novyye pedagogicheskiye i informatsionnyye tekhnologii v sisteme obrazovaniya. Akademiya.

Rean, A. A., Kolominskiy, YA. L. (1999). *Sotsial'naya pedagogicheskaya psikhologiya*. Piter.

Sadıqova, F. (2021). *Təhsildə Motivasiya və Özünəinamın Formalaşdırılması*. Azərbaycan məktəbi, № 3.

Sultanova, T. A. (2012). *Proyektnoye obucheniye v gruppe*. Orenburg, Orenburgskiy Gosudarstvennıy Universitet.

Zeynaloğlu, C. (2015). *Təlim Fəaliyyətinin Psixoloji Prosesi*. Print-S.